HEYDƏR ƏLİYEV - 101

纪念盖达尔·阿利耶夫诞辰101周年

# AZƏRBAYCAN – ÇİN

# (1993-2003)

# PREZİDENT SALNAMƏSİ

# 阿塞拜疆 - 中国

# (一 九九 三 - 二〇〇三 年)

- 4491 -

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı-2024

66.4(5Aze)+66.4(5Kit)+66.3(5Aze)1
A 99

Tərtibçi:

Rafiq ABBASOV

Azərbaycan Dillər Universiteti nəzdində Konfutsi İnstitutunun direktoru

**编者：阿塞拜疆语言大学孔子学院院长拉菲克·阿巴索夫**

AZƏRBAYCAN-ÇİN (1993-2003) • PREZİDENT SALNAMƏSİ - Bakı: "Sim-sim Press" nəşriyyatı, 2024. - 304 səh.

Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-2003-cu illər ərzində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı sahəsində çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər əks olunmuşdur.

ISBN 978-9952-581-20-1

© R.I.Abbasov, 2024

PREZİDENT SALNAMƏSİ

---

NİTQLƏR

---

ÇIXIŞLAR

---

MÜSAHİBƏLƏR

---

MƏKTUBLAR

---

MƏRUZƏLƏR

---

有的人活着，
他已经死了；
有的人死了，
他还活着。

## 1993

**Iyunun 25-də Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sya Şuyuyanı qəbul etmişdir.**

Sya Şuyuyan Ümumçin Xalq Nünayəndələri Məclisi Daimi Komitə Sədrinin Heydər Əliyevə göndərdiyi təbrik teleqramını Azərbaycan Parlamenti rəhbərinə təqdim etdi və ona öz ölkəsinin dövlət rəhbərlərinin salamlarını yetirdi. Heydər Əliyev Çin kimi nəhəng bir ölkənin dövlət başçılarının onu salamladığından məmnun olduğunu bildirərək, səmimi təbrik üçün ÇXR parlamentinin rəhbərinə onun təşəkkürünü çatdırmağı səfirdən xahiş etdi.

Səfir Sya Şuyuyan dedi: İyunun 24-də Milli Məclis Prezident səlahiyyətlərini Zati-alilərinizə vermək barədə qərar qəbul etdi. Siz beynəlxalq aləmdə təcrübəli və nüfuzlu siyasi xadim kimi tanınırsınız. Azərbaycanın çox ağır bir dövründə Sizə ölkənin ən yüksək vəzifəsi tapşırılmışdır. Mən əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan bu çətin vəziyyətdən xilas olub sabitliyə, sülhə və yüksək inkişaf yoluna qədəm qoyacaq. Bu işdə Sizə uğurlar diləyirəm.

Heydər Əliyev səmimi sözlərə və xoş arzuya görə səfirə təşəkkür edərək dedi: – Həqiqətən, Azərbaycan çox ağır və məsuliyyətli günlərini yaşayır. Ölkəmizin iqtisadi böhran keçirdiyi aydındır. Digər tərəfdən, Azərbaycan xalqı özünün ərazi bütövlüyünü qorumaq üçün 5 ildən artıqdır ki, erməni işğalçıları ilə müharibə aparır. Bütün bunlarla yanaşı, son

günlər baş vermiş hadisələr, xüsusilə, respublika prezidenti Əbülfəz Elçibəyin Bakını tərk etməsi vəziyyəti daha da ağırlaşdırmışdır. Heydər Əliyev ayın son hadisələri barədə səfirə ətraflı məlumat verərək bildirdi ki, bizim nə baş nazirimiz, nə də daxili işlər nazirimiz, nə də milli təhlükəsizlik nazirimiz var. Əlbəttə, Milli Məclisin son qərarı ilə mənim üzərimə böyük məsuliyyət qoyulub. Ancaq mən çalışacağam ki, bütün imkanlarımdan, təcrübəmdən istifadə edib siyasi qüvvələrlə, xalqla birgə ölkəni bu ağır vəziyyətdən çıxarım. Heydər Əliyev ümidvar olduğunu bildirdi ki, dünya dövlətləri, beynəlxalq ictimaiyyət Azərbaycan Respublikası Milli Məclisinin məlum qərarını düzgün başa düşəcək. Çünki bu qərarla biz ölkədə qardaş qırğınına səbəb olacaq vətəndaş müharibəsinin qarşısını almışıq.

ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ MƏCLİSİ DAİMİ KOMİTƏSİNİN SƏDRİ TSYAO Şİ CƏNABLARINA

Hörmətli cənab Tsyao Şi!

Azərbaycan xalqı və rəhbərliyi adından Sizi və Sizin şəxsinizdə dost Çin xalqını ÇXR-in təşkil olunması günü münasibətilə təbrik edirəm. Ötən illər ərzində Çin çətin, lakin heyrətamiz tərəqqi yolu keçmiş sosial və iqtisadi həyatın yenidən qurulmasında, elm və mədəniyyətin inkişafında nəzərəçarpacaq müvəffəqiyyətlər qazanmışdır. Bütün bu müvəffəqiyyətlər Çin xalqına xas müdriklik və əməksevərlik, ənənələrlə modernizmin, milli-dini xüsusiyyətlərin və müasir dövrün tələblərinin ahəngdar

sintezinə nail olmaq üçün göstərilmiş hörmətəlayiq səylər sayəsində mümkün olmuşdur. Fürsətdən istifadə edib, bildirmək istəyirəm ki, Azərbaycan ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinə və dərinləşməsinə, bu əməkdaşlığın daha yüksək keyfiyyət səviyyəsinə qaldırılmasına çalışacaqdır. Sizin dost ölkənizlə öz münasibətlərimizdə biz onun suverenliyinə və ərazi bütövlüyünə, Çin xalqının öz sosial-iqtisadi və ideoloji istiqamətlərini sərbəst seçməsinə hörmət etməyi əsas tutmaq niyyətindəyik. Ümidvaram ki, Sizin dövlətiniz tərəfindən müdafiə edilən səmimi niyyətlərimiz Azərbaycanla Çin arasında uzunmüddətli səmərəli qarşılıqlı fəaliyyət üçün əsas olacaqdır. Sizə uğurlar, bütün Çin xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,

Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirən,

Azərbaycan Respublikası Ali Sovetinin sədri.

Bakı şəhəri, 1 oktyabr 1993-cü il

**Martın 1-də Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sya Şuyuyanı onun xahişi ilə qəbul etdi.**

Sya Şuyuyan Heydər Əkliyevə vaxt tapıb onu qəbul etdiyinə görə minətdarlığını bildirdi və əlavə etdi ki, müstəqil Azərbaycanın Prezidentinin tezliklə Çin Xalq Respublikasına ilk səfəri olacaqdır. Bu səfəri Çin Xalq Respublikasının dövlət rəhbərləri, eləcə də Çin xalqı yüksək qiymətləndirirlər. ÇXR-ın Azərbaycandakı təmsilçisi kimi mən Sizə bu səfərdə uğurlar diləyirəm. Səfir eyni zamanda Azərbaycan Respublikası Prezidentinin Çin Xalq Respublikasına qarşıdakı səfəri ilə əlaqədar bu günlərdə Pekinə gedəcəyini də söylədi.

Heydər Əliyev onu Çin Xalq Respublikasına rəsmi səfərə dəvət etmiş dövlət rəhbərlərinə və Çin xalqına minnətdarlığını bildirdikdən sonra əlavə etdi: "Müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi Çin Xalq Respublikasına bu, ilk səfərimdir. Artıq səfərin müddəti dəqiqləşdirilmişdir. Hesab edirəm ki, gənc Azərbaycan dövləti üçün bu səfərin böyük əhəmiyyəti olacaqdır. Çünki belə səfərlər, ilk növbədə, hər iki dövlətin bütün sahələrdə əməkdaşlığına imkanlar açır".

Heydər Əliyev daha sonra əlavə etdi ki, artıq Azərbaycan Respublikası ilə ÇXR arasında diplomatik əlaqələr

yaranmışdır. Elə Sizin Azərbaycandakı rəsmi fəaliyyətiniz buna misaldır. Bu səfərimiz isə Azərbaycanla Çin dövləti arasında formalaşmağa başlayan diplomatik əlaqələr üçün daha geniş yollar açacaqdır. Mən Çinin qədim və zəngin tarixinə bələdəm. ÇXR müstəqillik əldə edəndən sonra iqtisadi, siyasi və mədəni sahələrdə böyük nailiyyətlər qazanmışdır. Çin böyük dövlətdir və BMT-nin Təhlükəsizlik Şurasının beş daimi üzvlərindən biridir. Onun dünyadakı siyasi çəkisi və nüfuzu da böyükdür. Biz bütün amilləri dəyərləndiririk və yüksək qiymətləndiririk. Ümidvaram ki, bu səfərimiz ölkələrimiz arasında mədəni, iqtisadi sahədə geniş imkanların açılmasında əhəmiyyətli rol oynayacaqdır. Bu səfəri mən səbirsizliklə gözləyirəm.

Cənab Sya Şuyuyan öz növbəsində bildirdi ki, Azərbaycan xalqı kimi Çin xalqı da qonaqpərvər və mehribandır. "Ümidvaram ki, səfər vaxtı dediklərimizin canlı şahidi olacaqsınız".

Heydər Əliyev qeyd etdi ki, Çin xalqı öz müstəqilliyi uğrunda uzun müddət mübarizə aparmışdır. Artıq 45 ildir ki, Çin xalqı öz müstəqil dövlətini qoruyur və müdafiə edir. Azərbaycan Respublikası isə cəmi iki ildir ki, müstəqillik əldə edib, Azərbaycan xalqı öz dövlətinin müstəqilliyini qoruya-qoruya torpaqlarını da müdafiə edir. Ölkəmizin indiki durumundan bir səfir kimi xəbərdarsınız. Çin Xalq Respublikasına səfərimizin bizim üçün böyük əhəmiyyəti var. Ümidvaram ki, səfər iki dövlət üçün geniş perspektivli imkanlar açacaqdır.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇİN XALQ RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

## 阿塞拜疆共和国总统盖达尔•阿利耶夫对中国人民共和国进行正式访问

### TƏNTƏNƏLİ RƏSMİ QARŞILANMA MƏRASİMİ

Azərbaycan Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasının Sədri Tszyan Tszeminin dəvəti ilə 1994-cü il martın 6-da Bakıdan Pekinə rəsmi səfərə yola düsdü. Azərbaycan dövlətinin başçısı martın 7-də ÇXR-a gəldi. Heydər Əliyevi bu səfərdə Milli Məclisin üzvləri, ayrı-ayrı nazirliklərin, komitələrin, şirkətlərin başçıları, ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri, işgüzar dairələrin nümayəndələri, mətbuat işçiləri müşaiyət edirdilər.

Pekinin "Şoudu" hava limanında Azərbaycan Prezidentini Çin Xalq Respublikasının yüksək vəzifəli şəxsləri, Azərbaycan Respublikasının ÇXR-dakı səfiri Tamerlan Qarayev ve ÇXR-in Azərbaycandaki səfiri Sya Şuyuan qarşıladılar.

Heydər Əliyev hava limanından ÇXR-in şərəfli qonaqları üçün ayrılmış iqamətgahaın gəldi. Qısa istirahətdən sonra Ümumçin Xalq Nümayəndələri Məclisi sarayında Azərbaycan Prezidentinin təntənəli rəsmi qarşılaşma mərasimi keçirildi. Sarayın yerləşdiyi Tyananmen meydanı Azərbaycan Respublikasının və ÇXR-ın dövlət bayraqları ilə bəzədilmişdi. Yerli vaxtla saat 16.00-da topların yaylım

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

